# Müasir dövrdə dəyərlərin formalaşmasının psixoloji mexanizmləri*

**Kamilə Əliyeva[1], Rəşid Cabbarov[2], İranə Məmmədli[3], Turanə Əliyeva[4]**

**Müəlliflər:**
[1] Kamilə Əliyeva — psixologiya üzrə elmlər doktoru, professor, BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının müdiri.
E-mail: bdu_sepp@mail.ru

[2] Rəşid Cabbarov — psixologiya üzrə fəlsəfə doktoru, BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının dosenti.
rashid.cabbarov@mail.ru

[3] İranə Məmmədli — psixologiya üzrə fəlsəfə doktoru, BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının dosenti.
iranamammadli@yahoo.com

[4] Turanə Əliyeva — ADA universiteninin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru.
kebirli_turan@yahoo.co.uk

**Açar sözlər:**
Müasir dövr, dəyərlərin formalaşması, tədqiqat istiqamətləri, psixoloji mexanizmlər.

**Annotasiya.** Məqalədə müasir dövrdə dəyərlərin psixoloji mexanizmi açıqlanır, dəyərlər və şəxsiyyətin istiqamətləri araşdırılır və müxtəlif tədqiqatlarda dəyər anlayışına verilən təriflər sistemləşdirilir. Qeyd edilir ki, dəyər istiqamətləri şəxsiyyətin daxili strukturu və fərdin həyat təcrübəsi ilə təsbit edilən, insan üçün əhəmiyyətli, mənalı olanları mənasız olanlardan ayıran ən vacib elementləridir. Formalaşan dəyər istiqamətləri toplusu şəxsiyyətin sabitliyini, müəyyən davranış və tələbatların, maraqların yönləndirilməsində ifadə edilən fəaliyyət tipinin varisliyini təmin edən özünəməxsus düşüncə vektorunu yaradır. Məqalədə A.Maslounun, D.Kaqanın, D.Leontyevin, M.Qinzburqun və b. dəyər haqqında fikirləri təhlil olunur və həmin fikirlərə müstəqil mövqe bildirilir. Bu konsepsiyalar dəyər istiqamətlərinin təyin edilməsinin müxtəlif variantlarını təqdim edir. Onlardan bəziləri, başlıca olaraq dəyərlərin həyatın iyerarxik təşkil edilmiş əsas prinsiplər sistemi kimi başa düşülməsinə əsaslanır; həm də iyerarxiyalaşma, dəyərlərin tabe edilməsinin müəyyən edilməsi məhz subyekt funksiyası kimi çıxış edir. Digər konsepsiyalar, əsasən, dəyər istiqamətinin müəyyən məna sistemi kimi nəzərdən keçirilməsinə əsaslanır. Belə izah onun bəzi qrup və ya dəyərlər sinfinin daxilində diferensiasiya üsulu kimi təyini ilə uyğunlaşır. Sonda belə bir nəticəyə gəlinir ki, dəyərlərin psixoloji mexanizminin öyrənilməsi şəxsiyyətin ideallarını, maraqlarını və tələbatlar iyerarxiyasında tutduğu mövqeni aydınlaşdırmağa imkan verir ki, bu da təhsildə dəyərlərin adekvat formalaşdırılmasını tələb edən konsepsiyanın yaradılmasının metodoloji əsaslarını qurmağa zəmin yaradır.

https://orcid.org/0000-0003-4959-9440
**DOI:** 10.32906/AJES/683.2018.04.29
**Məqaləyə istinad:** Əliyeva K., Cabbarov R., Məmmədli İ., Əliyeva T. (2018) *Müasir dövrdə dəyərlərin formalaşmasının psixoloji mexanizmləri.* «Azərbaycan məktəbi». № 4 (685), səh. 77–84.
**Məqalə tarixçəsi**
Göndərilib: 15.10.2018; Qəbul edilib: 20.11.2018

* Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant.№ EİF/MQM/ Elm-Təhsil-1-2016-1(26)-71/08/5-M-05

# Contemporary values and psychological functions of its formation summary

**Kamila Aliyeva[1], Rashid Jabbarov[2], İrana Mammadli[3], Turana Aliyeva[4]**

**Authors:**
[1] Kamila Aliyeva,
Dr. Prof., Head of the Department of Social and Pedagogical Psychology of BSU. Azerbaijan, Baku.
E-mail: bdu_sepp@mail.ru

[2] Rashid Jabbarov,
PhD in Psychology, Assoc. Prof.of Social and Pedagogical Psychology Department of BSU.
Azerbaijan, Baku.
E-mail: rashid.cabbarov@mail.ru

[3] İrana Mammadli,
PhD in Psychology, Assoc.Prof.of Social and Pedagogical Psychology Department of BSU.
Azerbaijan, Baku.
E-mail: iranamammadli@yahoo.com

[4] Turana Aliyeva,
PhD in Psychology. Teacher at ADA University. Azerbaijan, Baku.
E-mail: kebirli_turan@yahoo.co.uk

**Keywords:**
Modern era, values formation, research directions, psychological mechanisms.

**Abstract.** The article describes the psychological mechanism of values in the modern era, explores the values and personality trends, and the definitions given to value concepts in various studies are systematized. It is noted that the values of the values are the most important elements of the internal structure of the personality that distinguish between the individual's life experience and all its excitement and distinguish those important, meaningful ones from the pointless, meaningless ones. The set of value-oriented trends creates a personalized vector of thought, which ensures the identity of the individual, the behavior of certain behaviors and needs and the type of activity expressed in the direction of interests. The article includes articles by A. Maslow, D.Kagan, D. Donor, M. Gionzburg and others. values are analyzed and expressed an independent position on those opinions. These concepts provide different options for determining value orientations. Some of them are based primarily on the understanding of values as a hierarchically organized system of basic principles; but also hierarchical, determining the subordination of values is a function of the subject. Other concepts are basically based on a sense of value-orientation as a system of meaning. This explanation is in line with its definition of some group or class of values as a differentiation method. Finally, it is concluded that the study of the psychological mechanisms of values enables the individual to define the ideals, interests and hierarchy of the personality, which allows the methodology of creating a concept that requires adequate formalities in education.

https://orcid.org/0000-0003-4959-9440
**DOI:** 10.32906/AJES/683.2018.04.29
**To cite this article:** Aliyeva K., Jabbarov R., Mammadli I., Aliyeva T. (2018) *Contemporary Values and Psychological Functions of its Formation Summary.* Azerbaijan Journal of Educational Studies. Vol. 685, Issue IV, pp. 77–84.
**Article history**
Received: 15.10.2018; Accepted: 20.11.2018

Azərbaycanın Avropa məkanına inteqrasiyası, qloballaşma prosesi bir çox sahələrdə olduğu kimi təhsil sistemində də ciddi dəyişikliklərin həyata keçirilməsinə zərurət yaratmışdır.

Təhsil sahəsində həyata keçirilən islahat proqramlarında, xüsusilə də «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda göstərilir ki, milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrların hazırlanması təhsil sisteminin başlıca vəzifələrindən biridir. Bu vəzifənin həyata keçirilməsində dəyərlər sisteminin inkişafı əsas yerlərdən birini tutur. Məhz bu nöqteyinəzərdən təhsildə şəxsiyyətin dəyərlər sisteminin tədqiqi bir tərəfdən zəruri olan islahatların həyata keçirilməsində mühüm vasitə ola bilər. Digər tərəfdən isə hərtərəfli inkişaf etmiş şəxsiyyətin, insan kapitalının formalaşdırılmasına əhəmiyyətli təsir edər.

Bəs dəyərlərin formalaşdırılması hansı istiqamətdə gedir? Bu suala cavab tapmaq üçün psixologiyada dəyər anlayışının mahiyyətinə aydınlıq gətirmək zəruridir.

Psixologiya elmində dəyərlər və onun tədqiqi geniş tarixi dövrü əhatə edir. Dəyərlər haqqında psixoloji yanaşmaları müəyyən ortaq məxrəcə gətirmək mümkün olsa da, çoxlu paradoksal hallar müşahidə olunur ki, bu da psixologiyada dəyərlər anlayışına yeni kontekstdən baxılmasını zəruri edir. Başqa bir tərəfdən isə dəyərlərin fenomenologiyası izah edilməmiş qalır. Belə vəziyyət zəruri dəyərlərin formalaşdırılması işində metodoloji çətinliklər yaradır, dəyərlərin transformasiyasında zəruri olan mexanizmləri müəyyənləşdirmək işində maneələr ortaya çıxarır.

Müasir dövrdə dəyərlərin inteqrasiyası şəraitində onların dəyişilmə mexanizmi bir çox hallarda şəxsiyyətin həyata baxışını dəyişdirir ki, bu da bu problemin psixoloji mexanizmlərinin açılmasını tələb edir. Tədqiqatlar göstərir ki, hər bir araşdırmalarda dəyərlər özünəməxsus aspektdə şərh edilir [Əliyev B.H., Cabbarov R.V. 2008, 134 s.; Əzimov Q.E. 2004, 338 s.; Həmzəyev M.Ə. 2003, 282 s.; Гинзбург M.P. 1996, 42 c.].

A.Maslounun fikrincə, dəyər anlayışı «müxtəlif, çox vaxt aydın olmayan şeylərin saxlandığı böyük sandıqdır» [Маслоу А.Г. 1997, 430 c.]. Müəlliflərin bir çoxu bu anlayışın müxtəlif, çox vaxt birbaşa zidd olan əlamətlərini ayırırlar. Dəyərlər həm də psixologiyadan başqa digər elmlərə daxil edilir. Bundan başqa, dəyərlərin və dəyər istiqamətlərinin hansı nisbətdə olmasının birmənalı anlayışı yoxdur. Bu da tədqiqatlar üçün əlavə metodoloji çətinliklər yaradır.

Müxtəlif mənbələrdə dəyər istiqamətləri aşağıdakı kimi səciyyələndirilir: «Dəyər istiqamətləri şəxsiyyətin daxili strukturunun fərdin həyat təcrübəsi ilə, onun bütün həyəcanları ilə təsbit edilmiş və insan üçün əhəmiyyətli, mənalı olanları əhəmiyyətsiz, mənasız olanlardan ayıran ən vacib elementləridir. Formalaşan dəyər istiqamətləri toplusu şəxsiyyətin sabitliyini, müəyyən davranış və tələbatların və maraqların yönləndirilməsində ifadə edilən fəaliyyət tipinin varisliyini təmin edən özünəməxsus düşüncə vektorunu yaradır» [Фролова И.Т. 2001,719 c.].

«Dəyər istiqamətləri fərd üçün əşyaların və ya sosial şəraitin müsbət və ya mənfi əhəmiyyətini ifadə edən anlayışdır. Onlar insanın müxtəlif maddi, mənəvi, siyasi və əxlaqi dəyərlərə münasibətlərinin daxili əsasını ifadə edir» [Ярошевского М.Г. 1990, 494 c.]. Göründüyü kimi, dəyər istiqamətləri təhsil subyektlərinin bilavasitə onlar üçün vacib olan cəhətlərə münasibətləridir. Dəyər istiqamətlərinin dinamikasını bilməklə şəxsiyyətin formalaşdırılmasını, onun strukturunda aparıcı motivləri aydınlaşdırmaq mümkündür.

M.Kaqan dəyərin spesifikasının təyin edilməsini onun subyekt və obyekt arasında xüsusi əlaqə tipi kimi təhlil edilməsi ilə əlaqələndirir. O, insanın fəaliyyətinin qurulmasında sistem yanaşmaya əsaslanır.

Müəllifin fikrincə, onun tam təsvirinə beş zəruri formanın nəzərdən keçirilməsi daxildir:

1) idrak;
2) dəyişmə;
3) bədii yaradıcılıq;
4) ünsiyyət;
5) dəyər.

Dəyər münasibətlərinin insanın fəaliyyətinin ümumi arxitektonikasında tutduğu yer onunla təyin edilir ki, subyekt üçün obyektin əhəmiyyətinin aşkar edilməsi yalnız onun çərçivəsində baş verir [Гинзбург М.Р. 1996, 42 с.]. Bir tərəfdən, obyekt (dəyərlə eyniləşdirilməyən) subyekt üçün dəyər daşıyıcısı olur, digər tərəfdən, subyekt dəyərlərin qiymətləndirilməsinin və obyektin dəyərlərinin dərk edilməsinin subyektiv proseslərində onu müəyyən edir [Гинзбург М.Р. 1996, 42 с.]. Bu subyektiv proseslər M.Kaqan tərəfindən təklif edilən dəyər münasibətləri modeli çərçivəsində dəyər istiqamətləri adlandırıla bilər. Həmin münasibətlərin tədqiqi iki nöqteyi–nəzəri ehtimal edir: xarici və daxili.

Dəyər münasibətlərinə kənardan, sanki kənar müşahidəçi mövqeyindən baxılması onun necə «təşəkkülünün» və fəaliyyət göstərməsinin aydınlaşdırılmasını nəzərdə tutur. Dəyər münasibətlərinə daxildən, daxili müşahidəçi mövqeyindən baxılması isə subyektiv dərketmə və qiymətləndirmə proseslərinin rekonstruksiyasını ehtimal edir, burada dəyər şüurla «qavranılır». Dəyər istiqamətlərinin təzahürlərinin müxtəlifliyini M.Kaqan onunla izah edir ki, o təkcə fərdi səviyyədə deyil, həm də qrupla qarşılıqlı əlaqədə olan subyektin müxtəlif dərketmə səviyyələrində çıxış edə bilər.

D.A.Leontyev isə dəyərlərin başa düşülməsinə müxtəlif yanaşmaları sintez etməyə çalışmışdır [Круглов Б.С. 1978, 158 с.; Леонтьев Д. А. 2011, с. 11-12]. O, dəyərlərin təbiətinin və mahiyyətinin bütün məlum izahlarını altı mövqedə birləşdirmişdir.

1. Dəyərlər nəyinsə atributu kimi – dəyərlər müstəqil psixoloji hal kimi.

2. Dəyərlər konkret əşyalar kimi – dəyərlər mücərrəd mahiyyətlər kimi.

3. Dəyərlər fərdi təbiətə malik sistemlər kimi – dəyərlər üstün fərdi təbiətə malik sistemlər kimi.

4. Dəyərlər universal və mütləq mahiyyətlər kimi – dəyərlər cəmiyyətin həyat fəaliyyəti cəhətlərinin və ictimai münasibətlərin açıq şəkildə əks olunduğu sosial hal kimi.

5. Dəyərlər sosial nəzarət mexanizmləri vasitəsilə daxildə «qoyulan», şəxsiyyətdən ayrılmış sosial tənzimləyicilər və yönləndirici kimi.

6. Dəyərlər birmənalı şəkildə başa düşülməsini və sözsüz riayət edilməsini tələb edən standart normalar və davranış qaydaları kimi – dəyərlər ideallar və ya lazımi, birmənalı göstərişlərə bərabərləşdirilməyən, yalnız fəaliyyətin konkret parametrlərini deyil, ümumi istiqamətini göstərən modellər kimi [Леонтьев Д.А. 1998, с. 13-25].

D.A.Leontyev dəyərlərin mövcudluğunun üç forması haqqında fikirlərini ifadə etməyə çalışmışdır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İctimai şüurda formalaşan ictimai ideallar və ictimai həyatın mükəmməlliyi və müxtəlif sahələri haqqında ümumiləşdirilmiş təsəvvürlər forması kimi.

2) Bu idealların əməllərdə və ya konkret insanların əsərlərində predmet təcəssümü forması kimi.

3) Şəxsiyyəti öz fəaliyyətində ictimai dəyər ideallarının predmet təcəssümünə təhrik edən motivasiya strukturu forması kimi (lazımi model haqqında) [Леонтьев Д.А. 1998с. 13-25].

Dəyərlərin mövcudluğunun bu üç forması bir-biri ilə qarşılıqlı əlaqədədir. Sadələşdirilmiş şəkildə bu əlaqəni aşağıdakı şəkildə təsəvvür etmək olar: ictimai ideallar şəxsiyyət tərəfindən mənimsənilir və «lazımi model» kimi onu fəallığa təhrik etməyə başlayır. Bu prosesdə onların predmet təcəssümü baş verir. Öz növbəsində predmet təcəssümü bu və ya digər ictimai ideaların sonsuz spiral üzrə irəli sürülməsi üçün əsasa çevrilir.

D.A.Leontyev sosial və şəxsiyyət dəyərlərini

ayırır. Sosial dəyərlər ictimai şüur səviyyəsində ideal obyektlər – ictimai ideallardır. Onlar hər hansı sahədə mükəmməllik meyarlarını əmələ gətirir, arzu olunan vəziyyətə doğru son istiqaməti göstərir. Şəxsiyyət dəyərləri isə ictimai idealların fərdi mövcudluq formasıdır.

D.A.Leontyev belə güman edirdi ki, dəyərlər şəxsiyyətin motivlərində ifadə edilir. Subyekt tərəfindən ictimai ideallar kimi dərk edilən, lakin bu zaman onun real davranışına heç bir təsir göstərməyən sosial dəyərlərdən fərqli olaraq şəxsiyyət dəyərləri şəxsi fəaliyyətin, motivasiyanın daxili tənzimləyiciləri olan emosional baxımdan mənimsənilmiş ideallardır [Леонтьев Д.А. 1998, c. 13-25].

Bu baxımdan təhsil subyektlərində dəyər istiqamətlərini formalaşdırmaq üçün motivasiya sisteminə üstünlük verilməlidir. Təhsil subyektlərində idrak motivlərinin inkişaf etdirilməsi dəyərlərin formalaşdırlmasına zəmin yaradır.

Bir məqamı da qeyd etmək lazımdır ki, şəxsiyyət dəyərləri və dəyər istiqamətləri eyni anlamda işlədilə bilməz. Dəyər istiqamətləri subyektin xüsusi dəyərləri haqqında təsəvvürləri kimi çıxış edir. Onların uyğun gəlməməsini bir çox tədqiqatlarda qeyd edilən, bəyan edilən və real mövcud dəyərlər arasında fərqlərin olması faktı təsdiq edir. Bu uyğunsuzluqların səbəbi onunla bağlıdır ki, əvvəla, şəxsiyyət dəyərləri sistemi hələ kifayət qədər formalaşmadığından, sistemə çevrilmədiyindən sistemli struktura malik deyil. İkincisi isə kifayət qədər inkişaf etməyən refleksiya və verbal resprezentasiya vasitələrinə yiyələnməyin aşağı səviyyəsi ilə, psixoloji müdafiə mexanizminin işi ilə, onun təsiri altında həm real, həm də bəyan edilən dəyərlərin subyektiv əhəmiyyəti arta və ya azala bilər.

D.Leontyev dəyər istiqamətləri ilə yanaşı, dəyər haqqında təsəvvürlərin digər növlərini də ayırır. Onlara, məsələn, dəyər stereotipləri, subyektin gələcəkdə (dəyər perspektivi) və keçmişdəki (dəyər retrospektivi) dəyərlər haqqında təsəvvürləri, öz şəxsi dəyərlər sisteminin inkişafının son istiqaməti haqqında təsəvvürlər kimi dəyər idealları, habelə ətrafdakı insanların dəyərlər haqqında təsəvvürləri də aid edilir. Ümumilikdə götürülən şəxsiyyət dəyərləri, dəyər istiqamətləri və digər dəyər təsəvvürləri subyekt səviyyəsində dəyər hallarının geniş təbəqəsini təşkil edir. Bu halların arasında məhz şəxsiyyət dəyərləri şəxsiyyətin «Mən»i ilə daha sıx bağlıdır. Ehtimal etmək olar ki, yalnız «Mən»ə (daha doğrusu, «Mən – idealın» məzmununa) daxil edilmək vasitəsilə şəxssiz üstün fərdi dəyərlər şəxsiyyət əhəmiyyətinə, mənaya və motivasiya gücünə malik ola bilər. Həmçinin onlar subyektin həyat dünyasının daxili və xarici fəallığında vacib rol oynayan əhəmiyyətli amillər ola bilər.

Bununla yanaşı, təsəvvür edilir ki, şəxsiyyət dəyərləri və dəyər istiqamətləri funksional vahid sistemdir. Onları sosial dəyərlərə dair subyektin eyni istiqamətinin iki səviyyəsi kimi başa düşmək olar.

D.Leontyevin yanaşmasında «şəxsiyyət dəyərləri» bu istiqamətin mövcudluq səviyyəsi ilə, «Dəyər istiqaməti» isə şəxsiyyət dəyərlərinin refleksiv təsəvvürü kimi onun refleksiv səviyyəsi ilə uyğunlaşır. Bu iki səviyyəni nəzərə almaqla «dəyər istiqaməti» termini ilə bu iki anlayışın hər ikisi adlandırıla bilər. Hər iki səviyyədə ona iki komponent daxildir: koqnitiv və motivasiya [Тихомандрицкая О.А., Дубовская Е.М. 1999, c. 80–90].

Dəyər istiqamətlərinin koqnitiv funksiyası ondan ibarətdir ki, onlar fərd üçün reallığın, situasiyaların, digər insanların, habelə özünün qiymətləndirilməsinin bəzi meyarları kimi çıxış edərək sosial idrak proseslərini şərtləndirir. Fərd dünyanı şəxsi dəyərlər prizması vasitəsilə dərk edir, buna görə də eyni hadisələrin və halların qavranlması müxtəlif insanlarda belə fərqlənir [Андреева Г.М. 2009, 305 c.].

Bundan başqa, artıq qeyd edildiyi kimi, dəyər istiqamətləri fəaliyyət motivi funksiyasını yerinə yetirir. Şəxsiyyət dəyərləri funksional olaraq tələbatlarla oxşardır, lakin onlardan nisbətən asılı olmayan motivasiya mənbəyidir. Belə ki, subyektin dünya ilə bilavasitə həyat münasibətləri forması olmaqla aktual tələblərin

və situasiyaların dinamikasını əks etdirir. Onlar insanı hər hansı bir fəaliyyəti həyata keçirməyə təhrik edir, itələyir, nəticədə, tələbatlar ödənir və öz aktuallığını itirir. Dəyərlər açıq şəkildə bəşəriyyətin ümumi təcrübəsini ehtiva edən «lazımi model»i təmsil edərək praktik olaraq situasiya amillərindən asılı deyil, zəngin, davamlı və sabit motivasiya mənbələridir. Onlar tələbatlardan fərqli olaraq daxildən «təhrik etmir», sanki insanı özünə çəkməklə, onun hərəkətinin və inkişafının ümumi istiqamətini müəyyənləşdirir.

Tədqiqatçılar qeyd edir ki, mədəni dəyərlər həmişə bəzi variantlar şəklində verilmişdir. Buna görə də fərdi dəyər istiqamətləri həmişə bu variantlardan hər hansı birinin az və ya çox dərəcədə üstünlüyüdür. Bundan başqa, müxtəlif insanlarda dəyər istiqamətləri onların məzmununun interpretasiyası «daxili» və «xarici» amillərinin çoxluğu ilə təyin edilən vurğuların qoyulması ilə fərqlənir. Belə bir nəticə çıxarmaq olar ki, fərdi dəyərlər, cəmiyyətin dəyərlərinin konkretləşdirilməsidir. V.Franklın sözlərinə görə, «obyektiv dəyərlər konkret vəzifələrdir, gündəlik tələblər və fərdi vəzifələr formasına «çevrilir» [Франкл В. 1990, 367 с.].

Nəzərə almaq lazımdır ki, dəyərlərin insanların subyektiv dünyasında oynadığı rolu nəzərə alaraq, onların diaqnostika vasitələri və metodlarının işlənib hazırlanması ən vacib problemdir.

Q.Ollport, M.Rokiç, S.Şvarts, K.Klakhon və F.Klakhon bu sahəyə daha çox nəzərə çarpacaq töhfə vermişlər. Bu müəlliflərin yanaşmaları təkcə metodiki işlənməsi ilə deyil, (onların təklif etdiyi dəyər istiqamətlərinin ölçülməsi prosedurları geniş yayılmışdır) həm də konseptuallığı ilə fərqlənir.

Q. Ollport onların öyrənilməsinə empirik yanaşma ilə kifayət qədər mükəmməl nəzəri təsəvvürləri birləşdirən psixoloqlardan biri olmuşdur. O, fərdin başlıca həyat vəzifəsini dünya haqqında öz biliklərini nizamlamaq və sistemləşdirmək zərurəti hesab edir, bu meyli «koqnitiv məqsəd» anlayışı ilə qeyd edirdi. Bütün insanlar koqnitiv məqsədə malikdir, lakin onun konkret şəkildə doldurulması ondan asılıdır ki, insan hansı dəyərlərə üstünlük verir. Beləliklə, Q.Ollport üçün məqsəd və dəyər anlayışı sinonim deyil.

O, E.Şpranger tərəfindən təklif edilən dəyər təsnifatını əsas kimi götürərək dəyərlərin altı əsas tipini ayırır: nəzəri, iqtisadi, estetik, siyasi, sosial və dini. Onlara müvafiq olaraq altı əsas şəxsiyyət tipi ayrıd edilir. Hər bir insanda dəyərlərin bütün tiplərinə istiqamətlər ola bilər, lakin onlardan hansının üstün olmasından asılı olaraq müəyyən nisbətdə təzahür edir [Kluckhohn C. 1951. pp. 388-433].

Dəyər istiqamətlərinin öyrənilməsinə digər yanaşma M.Rokiçin adı ilə bağlıdır [Ros, M., Schwartz, S. H., & Surkiss, S. 1999, pp. 49-71]. O, dəyərləri şəxsiyyətin əqidə müxtəlifliyi kimi təyin edir. Onun fikrincə, insanın davranış tipləri və üstünlük verdiyi məqsədlər haqqında əqidəsini ifadə edən, müəyyən obyektlə və ya situasiya ilə bağlı olmayan, müsbət və ya mənfi mücərrəd ideyalar dəyərlər adlanır.

M.Rokiçə görə dəyərlərin aşağıdakı xüsusiyyətləri var:

1) Əhəmiyyətli dəyərlərin ümumi sayı çox deyil;

2) Bütün insanlar oxşar, lakin hər kəs üçün müxtəlif əhəmiyyəti olan dəyərlərə malikdir;

3) Bütün dəyərlər sistemə malikdir;

4) İnsan dəyərlərinin mənbəyi mədəniyyətdən, cəmiyyətdən, sosial institutlardan, şəxsiyyətdən qaynaqlanır;

5) Dəyərlər bir çox elmlərin tədqiqat predmeti olan fenomenlərə təsir edir. M.Rokiçin konsepsiyasında bütün dəyərlər terminal və instrumental dəyərlərə bölünür. Terminal dəyərlər fərdi şəkildə mövcud olmanın hər hansı sonuncu məqsədinin ona canatmağa çalışdığı əqidələrdir. İnstrumental dəyərlər şəxsiyyətin hər hansı hərəkət tərzinin və ya xüsusiyyətinin istənilən situasiyalarda üstün olması barədə əqidələrdir. İnsanların dəyərlərə bəslədiyi münasibətləri təhlil edərək M.Rokiç mövcud olan dəyərlər əsasında 18 terminal və eyni sayda instrumental dəyərlər müəyyən etdi ki, məhz onun əsasında xüsusi metodika yaradıldı.

Qeyd etmək lazımdır ki, dəyər istiqamətlərinin ölçülməsi proseduru dəyərlərin hər bir siyahısının sıralanmasından ibarətdir. Ş.Şvarts və U.Bilski tərəfindən işlənib hazırlanmış dəyər istiqamətlərinin tədqiqat metodikası ilkin olaraq müxtəlif mədəniyyətlərdə dəyərlərin öyrənilməsinə yönəlmişdir. Bu konsepsiyada dəyərlər insanın öz hərəkətlərinin, habelə digər insanların hərəkətlərinin və hadisələrin bəzi seçim və qiymətləndirmə meyarları kimi nəzərdən keçirilir.

Dəyərlərin öyrənilməsində daha bir istiqamət K.Klakhon yanaşması ilə bağlıdır. Onun məqsədi əvvəlcədən dəyərlərin rolunu bu mədəniyyətdə şəxsiyyətin inteqrasiyası amili kimi aydınlaşdırmaqdan ibarət idi. K.Klakhon dəyərləri aşağıdakı kimi səciyyələndirir: «Dəyərlər fərd və ya fərdlər qrupu üçün arzu olunan haqqında xarakterik, dərk edilən və ya dərk edilməyən təsəvvürdür, o hərəkətlərin mümkün vasitə və üsulları nəzərə almaqla məqsədlərin seçimini təyin edir» [Rokeach, M. 1973].

Dəyərlərin belə izahı ilə öz növbəsində, dəyər istiqaməti anlayışı bağlıdır. K.Klakhon onu «təbiətin ümumiləşdirilmiş konsepsiyası, insanın orada yeri, insanın insana münasibəti, şəxsiyyətlərarası münasibətlərdə arzuedilən və arzuedilməz və ətraf mühitlə münasibətdə bütünlükdə insanların davranışını müəyyən edən konsepsiya kimi» səciyyələndirir [Rokeach, M. 1973].

K.Klakhona görə, dəyər istiqamətləri dəyər üstünlüklərinin binar (ikili) mövqelər sistemidir. Öz məzmununa görə onlar fəlsəfi mücərrədlikdir – insan təcrübəsinin son hədd pillələri, insan təbiətinin son təzahürləridir. Mədəniyyətin dəyər dominantları dəyər istiqamətinin bu və ya digər qütbünü vurğulayır.

K.Klakhon dəyərlərin sistemləşdirilməsinə dair öz üsulunu və müvafiq test təklif etmişdir. Onun ideyaları sonradan F.Strodbekin əsərlərində inkişaf etdirilmişdir. Onlar belə bir müddəa formalaşdırdılar ki, «məhdud sayda ümumi insan problemləri mövcuddur. Bütün insanlar hər dövrdə hər hansı qərar qəbul etməlidirlər. Bu problemlərin həllinin müxtəlifliyinə baxmayaraq onlar təsadüfi deyil və sayları məhdud deyil» [Rokeach, M. 1973].

Nəzərdən keçirilən konsepsiyalar dəyər istiqamətlərinin təyin edilməsinin müxtəlif variantlarını nümayiş etdirir. Onlardan bəziləri, başlıca olaraq dəyərlərin həyatın iyerarxik təşkil edilmiş əsas prinsiplər sistemi kimi başa düşülməsinə, digərləri isə dəyər istiqamətinin müəyyən məna sistemi kimi nəzərdən keçirilməsinə əsaslanır. Belə izah onun bəzi qrup və ya dəyərlər sinfinin daxilində diferensiasiya üsulu kimi təyini ilə uyğunlaşır. Hər iki yanaşmanı məlum dərəcədə birləşdirməyə çalışan konsepsiyalar da mövcuddur.

## Nəticə

«Dəyər» və «dəyər istiqaməti» anlayışlarının nəzərdən keçirilməsini yekunlaşdıraraq belə bir nəticə çıxarmaq olar ki, psixoloji fenomen kimi dəyər istiqamətləri sosial dəyərlərdən törəmədir və onlar konkret insan tərəfindən mənimsənilmənin məhsulu kimi təqdim edilir. Dəyər istiqamətləri öz real inkişaf və fəaliyyətində «varlıq» və «refleksiv» əksolunma səviyyələrində çıxış edir və ona koqnitiv və motivasiya aspektləri daxildir. Onlar həm insanın ətraf mühiti qavrama və dərketmə proseslərində iştirak edir, həm də fəaliyyət motivasiyasında vacib rol oynayır. Şəxsiyyətin məna strukturu kimi dəyər istiqamətləri fərdin «Mən» – konsepsiyasının bir hissəsidir. O həm dəyər sistemi, həm də hər dəyərin daxili məzmununu təşkil edən məna sistemi kimi çıxış edə bilər.

D.Leontyev tərəfindən işlənib hazırlanmış dəyərlərin başa düşülməsinin belə modeli təsəvvürləri «Mən–ideal» ilə bağlayaraq əhəmiyyətli dərəcədə konkretləşdirməyə imkan verir. Təhlil edilən yanaşmalar təhsilə dəyər istiqamətinin psixoloji öyrənilmə sahəsini daha dəqiq müəyyənləşdirməyə və təlim subyekti problemi kontekstində öyrənilməli aspekti ayırd etməyə imkan verir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. (2003) Psixologiya. Bakı. s. 540.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. (2003) Sosial psixologiya. Bakı: Qapp, Poliqraf korporasiyası. s. 365.
3. Əliyev B.H., Cabbarov R.V. (2008) Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil. s. 134.
4. Əlizadə Ə.Ə. (1998) Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan. s. 368.
5. Əzimov Q.E. (2004) Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı: ADPU. s. 338.
6. Həmzəyev M.Ə. (2003) Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu. s. 282.
7. Qədirov Ə.Ə. (2002) Yaş psixologiyası. Bakı: Maarif. s. 386.
8. Mustafayev M.H. (2005) Gənclərin mənəvi inkişafının bəzi sosial-psixoloji məsələləri. Psixol. elm. nam. alimlik dərəcəsi almaq üçün dis. avtoref. Bakı. s. 18.
9. Алиева К.Р. (2008) Психология формирования творческого потенциала личности. Баку. с. 176.
10. Андреева Г.М. (2009) Психология социального познания: учеб. пособие /3-е изд., перераб. и доп. М.: Аспект Пресс. с. 305.
11. Гинзбург М.Р. (1996) Психология личностного самоопределения / Автореферат дисс. докт. психологич. наук. М.: ПИ РАО. с. 42.
12. Каган М.С. (1997) Философская теория ценности. СПб: ТОО, ТК Петрополис. с. 205.
13. Круглов Б.С. (1978) Психологические особенности отношения старшеклассников к правовым нормам: Дис. канд. психол. Наук. М. 158 с.
14. Леонтьев Д.А. (1998) Ценностные представления в индивидуальном и групповом сознании: виды, детерминанты и изменения во времени // Психол. обозрение. № 1., с. 13-25.
15. Леонтьев Д.А. (2011) Новые ориентиры понимания личности в психологии: от необходимого к возможному // Вопросы психологии. № 1, с. 11-12.
16. Маслоу А.Г. (1997) Дальние пределы человеческой психики / Пер. с англ. СПб.: Евразия. с. 430.
17. Психологический словарь. (1990) / Под. Обш. ред.А.В. Петровского, М.Г.Ярошевского. М.: Политзад. с. 494.
18. Развитие субеькта образование. (2005) / под.ред. Е.Д.Божович. М.: ПЕР СЭ. с. 400.
19. Социологический словарь. (1991) / [Сост. А. Н. Елсуков, К. В. Шульга]. 2-е изд., перераб. и доп. Минск: Университетское. с. 528.
20. Сеидов С.И. (2009) Феноменология творчества (История, Парадоксы, Личность). Баку: Чашыоглу. с. 304.
21. Тихомандрицкая О.А., Дубовская Е.М. (1999) Особенности социально-психологического изучения ценностей как элементов когнитивной и мотивационно-потребностной сферы. (Методические аспекты) // Мир психологии. Т.3, с. 80–90.
22. Философский словарь. (2001) /Под ред. Фролова И.Т. М.: Республика. с. 719.
23. Франкл В. (1990) Человек в поисках смысла. М.: Прогресс. 367 с.
24. Kluckhohn, C. (1951) Values and value-orientations in the theory of action: An exploration in definition and classification // In T. Parsons & E. Shils (Eds.), Toward a general theory of action. Cambridge, MA: Harvard University Press. pp. 388-433.
25. Rokeach, M. (1973) The nature of human values. New York: Free Press.
26. Ros, M., Schwartz, S.H., & Surkiss, S. (1999) Basic Individual values, work values, and the meaning of work // Applied Psychology: An International Review. 48. pp. 49-71.